## Əhməd Yəsəvi

Türk dünyasının bəşər mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlər arasında məşhur sufi şair və mütəfəkkir Xoca Əhməd Yəsəvinin xüsusi yeri var. Əhməd Şeyx İbrahim oğlu Yəsəvi 1103-cü ildə indiki Qazaxıstanda ruhani ailəsində dünyaya göz açıb. O dövrün məşhur alimlərindən fiqh (hüquq), hədis elmlərini və şəriət qayda-qanunlarını öyrənir, qısa müddət ərzində görkəmli din alimi kimi tanınır. Yüzlərlə müridi olan Əhməd Yəsəvi sadə ömür yaşayıb. Əl işləri sənəti ilə də məşğul olan mütəfəkkir taxta qaşıq düzəldib, gündəlik ruzisini onunla qazanıb. Araşdırmalarda göstərilir ki, insanlığa böyük məhəbbətlə yanaşan Əhməd Yəsəvi 63 yaşında evinin qabağında dərin quyu qazdırır. Ömrünün qalan hissəsini quyuda oturub Allaha dua etməklə keçirir. 1167-ci ildə Yəsi şəhərində dünyasını dəyişir. Bu itkini türklər dərin kədər hissi ilə qarşılayır. Onu böyük hörmət və ehtiramla evinin yaxınlığında dəfn edirlər. Məzarı üzərində kiçik bir türbə də tikirlər. XIV əsrin axırında Şərqin böyük hökmdarı Əmir Teymur onun türbəsini ziyarət edir. Şahın əmri ilə təriqət ustadının məzarı üstündə möhtəşəm bir memarlıq abidəsi ucaldılır. XII əsrdən adı bütün türk ellərində böyük hörmət və ehtiramla yad edilən Xoca Əhməd Yəsəvi həm də qüdrətli söz ustadı kimi tanınıb. 2016-cı il UNESCO tərəfindən "Xoca Əhməd Yəsəvi ili" elan edilmişdi. Bu münasibətlə TÜRKSOY-un təşkilatçılığı ilə türkdilli ölkələrdə, o cümlədən Azərbaycanda tədbirlər keçirilib.